# Ağ şahinlər

## Sərhədlərimiz istənilən hava şəraitindən asılı olmayaraq hər an ciddi nəzarət altındadır

Müstəqil Azərbaycan dövləti qurulduqdan sonra qarşıda duran ən vacib məsələlərdən biri ölkəmizin ərazi hüdudlarının qorunması, sərhədlərimizin bərpası və etibarlı mühafizəsi idi. Xüsusilə sərhəd qoşunlarının gücləndirilməsi, xidmətin yüksək səviyyədə təşkili dövlət başçısının daha çox diqqət etdiyi sahələrdən biri oldu. Bu sahədə əsaslı islahatlar aparıldı, ölkənin bütün istiqamətlərində yeni sərhəd məntəqələri yaradıldı, sərhədçilər tam müasir texnika və avadanlıqlarla təchiz olundular. Xidmətin etibarlı və yüksək səviyyədə təşkili üçün bu sahəyə rəhbərlik ixtisaslı kadrlara və peşəkarlara tapşırıldı. Elə bunun nəticəsidir ki, bu gün Azərbaycan sərhədləri yüksək səviyyədə mühafizə olunur, sərhədçilər çətin və məsuliyyətli işin öhdəsindən layiqincə gəlirlər.

Dövlət Sərhəd Xidmətinin Xudat Sərhəd Dəstəsinin "Ləzə" sərhəd zastavasında olarkən bunun bir daha şahidi olduq. Zastavaya səfərimiz qarlı günlərə təsadüf etdiyindən təəssüratlarımız da zəngindir. Əvvəlcə Xudat sərhəd dəstəsinə yollandıq. Buradan Azərbaycan-Rusiya dövlət sərhədini qoruyan və təyin olunmuş ərazidə xidmət aparan "Ləzə" sərhəd zastavasına getməli idik. Dərhal zastavaya yollanmaq üçün texnika ilə təmin olunduq və axşam saatlarında - gün batan çağı yola düşdük. Sözsüz, xüsusi mühafizə olunan, relyef və iqliminə görə təhlükəli yer olan bu əraziyə sərhədçi bələdçilərlə yollanmışdıq.









Burada sərhədçilərin xidməti ilə ilk tanışlığımız zastava istiqamətində qarlı və ziqzaqvari yollarla hərəkət edərkən başladı. Sürücümüz hər tərəfi qar örtmüş uca dağların ətəyində, sıldırımlı və buz bağlamış yollarla avtomobili elə idarə edirdi ki, sanki asfalt üstündə və ya hamar bir yolda hərəkət edir. Həm də sərhədçi əsgərin qısa zamanda texnika ilə davranmağı belə yüksək səviyyədə mənimsəməsi, psixoloji hazırlığı və özünəəminliyi əsgərlər arasında təlim və tədrisin yüksək səviyyədə olmasından xəbər verirdi. Macal tapıb xidmətdən öncə sürücü olub-olmadığını da soruşduq. Əsgər dərhal: "Yox, xidmət dövründə öyrənmişəm", - dedi. Maşın bələdçisi, təcrübəli zabit də söhbətə qoşularaq burada hər hansı bir ixtisasa yönəldilən əsgərin xidmətini həmin sahənin peşəkarı kimi başa vurduğunu bildirdi. Beləcə, gəlib zastavanın yerləşdiyi əraziyə çatdıq.

"Ləzə" sərhəd zastavası Böyük Qafqaz dağlarının yuxarı ətəyində, son dərəcə mürəkkəb relyefi olan və hər tərəfdən keçilməz sıldırım qayalarla əhatə olunmuş bir ərazidə yerləşir. Şahdağın ağ örpəyə bürünmüş ətəkləri və buz bağlamış şəlalələr qışda buranı daha da füsunkar edir. Zastava dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşsə də, xidmət sərhəd boyu 15 km məsafədə aparılmaqla təxminən 3000 metr hündürlüyə qədər ərazini əhatə edir. Burada olduğumuz zaman havanın temperaturu mənfi 10 dərəcə idi, amma sərhədçilər bildirdilər ki, ərazidə hətta mənfi 20 dərəcəyə qədər şaxta olur.

Öncə buradakı şəraitlə tanış olduq. 2011-ci ildə xidməti istifadəyə verilən zastavada zabit, gizir və əsgər heyəti üçün hər bir şərait yaradılıb. İlin, demək olar ki, tam yarısı binanın istilik təchizatı yüksək səviyyədə olur. Ərazidə neçə dərəcə şaxta olmasına baxmayaraq, otaq şəraitində tam normal temperatur saxlanılır. İşıqlandırma sistemi və rabitə əlaqəsi yüksək səviyyədədir. Binada yeməkxana, əsgərlərin təlim-tədris və istirahəti üçün xüsusi otaqlar ayrılıb. Yataqxana və hamam-camaşırxanalar əsgərlərin təmizlik və sağlamlığı üçün tam əlverişlidir. Həmçinin burada zabit və gizirlərin ailəvi yaşaması üçün hər bir məişət avadanlığı ilə təmin olunmuş mənzillər də var.

Zastava rəisi Sahil Əbilov şəxsi heyətin gündəlik xidmət rejimi və sərhəd xidmətinin necə təşkil olunması haqqında məlumat verdi. Bildirdi ki, şəxsi heyət "qalx" komandasından sonra səhər idmanına başlayır (gecə xidmətdə olanlar istisna olmaqla). Bunun üçün məntəqənin həyətində və binada xüsusi yerlər ayrılıb. İstənilən halda əsgərlərin fiziki hazırlığına xüsusi diqqət yetirilir. Sonra əsgərlər təlim və məşğələlərə cəlb edilir və sərhəd naryadları təyin olunur. Zastava rəisi onu da bildirdi ki, havanın şaxtalı və ərazinin mürəkkəb relyefə malik olmasından asılı olmayaraq, xidmət sutkanın 24 saatı bir neçə istiqamətdə aparılır. Bunun üçün sərhədçilər xüsusi avadanlıq, əşya və ətraf ərazilərin görünüşünə uyğun geyim ləvazimatları ilə təchiz edilib. Sərhəd naryadlarının təyin edilməsi zamanı hava şəraiti və buna uyğun olaraq əsgərlərin hazırlığı, xidməti təcrübəsi, vərdiş və bacarıqları, eyni zamanda əraziyə bələdçiliyi mütləq nəzərə alınır.

Ümumilikdə isə döyüş tapşırığının keyfiyyətli aparılması üçün bütün əsgərlər zabitlər tərəfindən kifayət qədər təlimatlandırılır, onların fiziki və psixoloji cəhətdən hazırlıqlı olması üçün xüsusi təlimlər keçirilir. Onlar burada xidmət etdikləri müddətdə hərb sənətinin sirlərini dərindən öyrəndiklərini, sərhədçi olmağın üstünlüklərini bizimlə bölüşdülər. Hər birisi sərhədlərimizin keşiyində durmağı özünə şərəf bildiyini dedi və yaradılan şəraitdən razılığını vurğuladı.

### Qar skuterləri və təlim görmüş atlar xidməti daha da asanlaşdırır

Öyrəndik ki, hava şəraiti fiziki qüvvə hesabına xidmətə mane olarsa, əməliyyat yolundan, texniki vasitələrin imkanlarından istifadəyə üstünlük verilir. Qarlı və çətin hava şəraitində sərhəd naryadlarının hərəkətini asanlaşdırmaq üçün xüsusi vasitələrdən - qar skuterlərindən, xizəklərdən və təlim görmüş atlardan istifadə olunur. Həmişə insanlara sadiqliyi ilə seçilən itlər də sərhədçilərin ayıq-sayıqlığında az rol oynamır.

Nəhayət, bizim üçün ən maraqlı an gəlib çatdı - bir az öncə zastava rəisinin xidmət və onun təşkili haqqında verdiyi nəzəri məlumatların canlı şahidi olacaqdıq. Axşam saat 11 radələridir. Xidmətə ayrılmış 3 nəfərdən ibarət sərhəd naryadı komandirlər tərəfindən təlimatlandıqdan sonra zastavaya tapşırılan ərazini yoxlamağa - xidmətə yollanırlar. Silah və gecəgörmə cihazları ilə təchiz olunan əsgərlər şəraitə uyğun olaraq ağ rəngdə geyinirlər. Əllərindəki dayaq çubuqları isə qarla örtülmüş cığırları enib-qalxmaq üçün onlara dayaq duracaq. Xidmətə yollanan sərhədçilər zastavadan uzaqlaşdıqca görünməz olub dağların ağ qarına qərq oldular. Onlar bir neçə saatdan sonra müəyyən olunmuş xidmət sahələrini yoxlayıb məntəqəyə dönəcəklər. Çox keçmədən digər naryad nəfərləri eyni qayda ilə başqa bir istiqamətdə xidmətə yollandılar. Onlar da xidməti vəzifələrini yerinə yetirib geri dönəcəklər. Qeyd etdiyimiz kimi, sutkanın 24 saatı xidmət beləcə davam edir. Gecənin qaranlığında 10 dərəcə şaxtada və belə mürəkkəb relyefə malik dağlarla hərəkət etməyi ancaq sərhədçi bacarar. Sərhədçilər də əsl peşəkarlardır.

Yerdə qar çox olduğundan skuterlərlə, xizəklərlə xidmətə yollanan sərhədçilər də fəal idilər. Belə hava şəraitində dağların döşü ilə şütüyən skuterlər sərhədçilərin işini xeyli asanlaşdırır. Xidməti atlar da sərhədçilərin ən yaxın dostudur. Onlar at belində özlərini daha güclü və yenilməz hiss edirlər. Əlbəttə, şəxsi heyətin hazırlığlı və yüksək əhvali-ruhiyyədə olması ilə bərabər, qeyd etdiyimiz texniki üstünlüklər, xüsusi vasitələrdən istifadə "Ləzə" sərhəd zastavasına həvalə edilən sərhəd zonasında xidmətin yüksək səviyyədə aparılmasına geniş imkanlar yaradır.

### Ləzə kənd sakinləri sərhədçilərin yanında özlərini təhlükəsiz hiss edirlər

Söhbət zamanı zastava rəisi onu da qeyd etdi ki, bu ərazidə sərhədin mühafizə olunmasında, sərhəd pozuntularının qarşısının alınmasında yaxınlıqda yerləşən Qusar rayonunun Ləzə kəndinin sakinləri də fəal iştirak edirlər. Kəndlilər əraziyə, onun xüsusiyyətlərinə və relyefinə daha yaxşı bələddirlər. Onlar çox yaxşı bilirlər ki, keçilməz yerlər və ya hərəkətin daha rahat mümkün olduğu ərazilər haradır, hansı dağın ətəyində qar uçqunları tez-tez baş verir. Ona görə də beynəlxalq təcrübədə olduğu kimi, burada da sərhəd bölgəsinə yaxın kənd əhalisi ilə sərhədçilər arasında xüsusi əlaqə mövcuddur və təbii ki, bu əlaqə sərhəd mühafizəsinin səmərəli təşkilinə yönəldilib. Onu da qeyd edək ki, hər bir kənd sakini haqqında zastavada məlumat var. Əgər kəndli təsərrüfat işləri ilə bağlı və ya digər məlum səbəbdən sərhədçilərin xidməti ərazisinə daxil olursa, mütləq məntəqədə qeydiyyata alınır və evinə qayıdanacan nəzarətdə saxlanılır. Odur ki, Ləzə kənd sakinləri burada zastava inşa olunandan bəri özlərini çox rahat və təhlükəsiz hiss edirlər.

Sonda əsgərlərlə birlikdə nahar etdik. Qida rasionu son dərəcə zəngindir. Demək olar ki, əsgərlərə milli mətbəximizdə olan əksər yeməklər verilir, həm də qədərincə. Onların sağlam, gümrah və güclü olmasında da bunu aydın hiss etmək mümkün idi. Zabitlərlə söhbətimizdə öyrəndik ki, burada qida təhlükəsizliyinə çox ciddi nəzarət olunur. Eyni zamanda zastavanın mərkəzə uzaqlığını və qış aylarında gediş-gəlişin çətinliyini nəzərə alaraq, ərzaq anbarında bir neçə aylıq qida toplanıb. Hətta yarım ilə yaxın heç bir yerdən ərzaq gəlməsə belə, anbardakı ərzaq zabit, gizir və əsgər heyətinin qida ilə təmin olunmasına bəs edir.

Beləcə, sərhədçilərlə sağollaşıb xoş təəssüratlarla geri döndük. Bir daha şahid olduq ki, burada hər bir sərhədçi öz vəzifəsini yaxşı bilir və öhdəsindən layiqincə gəlir. Onlara tapşırılan ərazinin mühafizəsini yüksək səviyyədə təşkil etmək üçün əllərindən gələni əsirgəmirlər. Həm də əmin olduq ki, istənilən hava şəraitində Azərbaycanın dövlət sərhədləri etibarlı və ciddi xidmət rejimində mühafizə olunur.

***Elnur HADIYEV,***
***"Azərbaycan"***